AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ARIF YUNUS OĞLU CƏFƏROV**

# ÜMUMTƏHSIL MƏKTƏBLƏRINDƏ IQTISADI BILIKLƏRIN VERILMƏSI ÜZRƏ IŞIN SISTEMI (IX-XI SINIFLƏR ÜZRƏ)

5801.01 - təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(İqtisadi biliklərin əsasları kursunun tədrisi metodikası ixtisası üzrə)

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı - 2014**

**İş Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Mirdaməd Mirsadıq oğlu Sadıqov**
*iqtisadiyyat üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi*

**Rəsmi opponentlər:** Mübariz Mirəziz oğlu Əmirov
pedaqogika üzrə elmlər doktoru, professor

Rasim Tapdıq oğlu Həsənov
iqtisadiyyat üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** BDU-nun "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrası

Müdafiə " _28___" _10__ 2014-cü ildə saat___da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcək.

Ünvan: Az - 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "__" ___________ 2014-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının
elmi katibi **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

## Tədqiqatın ümumi xarakteristikası

**Mövzunun aktuallığı:** Müasir dövrdə ölkəmizin qarşısında duran vəzifələrdən biri də həyatda öz yerini düzgün tapa bilən, əqli və mənəvi cəhətdən yüksək inkişaf etmiş, o cümlədən iqtisadi cəhətdən savadlı vətəndaşın yetişdirilməsidir. Xalqımızın Ümummilli Lideri H.Əliyevin 1999-cu ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" müstəqil respublikamızda təhsilin bu istiqamətdə təşkilinə böyük təkan vermişdir. Ölkə başçısı cənab İ.Əliyevin son on illikdə təhsil sahəsində apardığı təhsil siyasəti bu islahatları uğurla davamı kimi böyük əhəmiyyət kəsb edir. Gənc nəslin iqtisadi təhsili və tərbiyəsi sahəsində görülən işlər bu islahatların tərkib hissəsi kimi bu gün daha böyük əhəmiyyətə malikdir.

Ölkədə iqtisadi cəhətdən savadlı adamlar çox olduqca, yəni gənc nəsildə iqtisadi təhsilin əsaslarına yiyələnmə prosesi nə qədər tez baş verirsə, bunun ümumilikdə vətəndaş və cəmiyyət üçün bir o qədər də çox xeyri olar.

Respublikamızda son onillikdə yüksək texnologiyaların tətbiqi ilə şərtlənən cəmiyyətin iqtisadi vəziyyəti o qədər dəyişmişdir ki, faktoloji materialın bilinməsi, iş yerinin stabilliyi, işçinin bütün peşəkar həyatı boyu eyni funksiyaların yerinə yetirilməsilə bağlı olan məzunların keyfiyyət xarakteristikaları artıq köhnəlmiş hesab olunur. Onların əvəzinə XXI əsr üçün cəmiyyətin xarakterini müəyyən edən şəxsiyyətin digər keyfiyyətləri: ustalıq, sürətlə hərəkət etmək qabiliyyəti, kolektivdə işləmək bacarığı və bütövlükdə cəmiyyətə adaptasiya və sərvətlərinin çoxaldılmasında marağın olması və s. gəlir. Bütün bunlar təhsil sisteminin modernləşdirilməsinə, xüsusilə, təhsilin yeni keyfiyyətini təmin etməyə yönəlmiş pedaqoji texnologiyaların tətbiqinə zərurət yaradır. Bunun üçün gənclərin iqtisadi təhsilə yiyələnmələrinin böyük əhəmiyyəti vardır.

Təhsil islahatlarının aparıldığı müasir dövrdə iqtisadi təhsil üzrə standartların olmaması, keyfiyyətli elmi-metodiki materialların, proqramların, tədris metodlarının, texnologiyalarının qıtlığı və bir çox digər problemlər ümumtəhsil məktəblərində iqtisadiyyat fənni müəllimlərinin rast gəldiyi problemlərin tam olmayan

siyahısıdır. Hazırda onların hər birinə ətraflı və ciddi baxılması tələb edilir. Bu problemlərdən hər birinin həlli iqtisadi təhsilin düşünülmüş sisteminə tədricən keçməsi ilə nəticələnər ki, bu da məktəblərimizdə şagirdlərin iqtisadi təhsili və tərbiyəsinin yaxşılaşdırılmasına yaxından kömək edə bilər.

Şagirdin öz gələcək yolunun seçiminə şəraitin yaradılması, fərdi-psixofizioloji xüsusiyyətlərinə uyğun olaraq hər birinin inkişafı və onun tədris istiqaməti üzrə irəliləmə hərəkətinin müasir qiymətləndirmə metodlarının tətbiqi – müasir şəraitdə Azərbaycan təhsil sisteminin keyfiyyətinin yüksəldilməsindən çox asılıdır.

Respublikamızın iqtisadi müstəqillik yolu ilə irəlilədiyi bir vaxtda adamlarda təsərrüfatçılıq, əməyə qənaətcillik münasibəti bəsləməkdən ibarət olan iqtisadi təhsil məsələləri xüsusilə mühüm əhəmiyyət kəsb edir. İqtisadi təhsil xalqın milli psixologiyası, əhalinin məşğulluğunun coğrafiyası təsərrüfatın ixtisaslaşması, onun maddi-texniki təchizatı, sosial mühitlə bağlı olan əlaqələr, sərhədlərimizin qorunması, Vətənimizin müdafiəsi və s. problemlərin həllini özündə birləşdirməlidir. Eyni zamanda şagirdlərin peşə seçməyə hazırlanmasında özünü doğrultmuş formalardan biri kimi həyata keçirilməlidir. Şagirdlər hələ orta məktəbdən başlayaraq iqtisadi hadisə və proseslərin həlli və s. vəzifələrlə dərindən və hərtərəfli silahlandırılmalıdır.

Azərbaycan iqtisadiyyatında həyata keçirilən bazar iqtisadiyyatı siyasəti böyüməkdə olan nəslin iqtisadi sahibkarlıq hazırlığını zərurətə çevirir. Gənclərdə yeni təfəkkür, yeni davranış formalaşdırır. Yeni iqtisadi münasibətlə bazar strukturunun yaranması məktəb qarşısında yeni, cəmiyyət üçün isə vacib olan şagirdlərin ilkin iqtisadi və sahibkarlıq hazırlığının lazımi səviyyədə təminatı məsələsini qarşıya qoyur. Bunun həlli müasir ümumtəhsil məktəblərində şagirdlərə verilən iqtisadi təhsilin məzmununa yenidən baxılmasını, ölkənin siyasi, iqtisadi və sosial həyatında yaranmış radikal dəyişikliklərlə əlaqədar ziddiyyətlərin aradan qaldırılmasını zəruri edir.

Müşahidələr göstərir ki, nəinki ümumtəhsil məktəblərində, əhali arasında da ölkəmizdə iqtisadiyyat sahəsində keçirilən islahatları, hətta bazar iqtisadiyyatına keçid ideyasını da hərtərəfli dərk etmirlər. Bu da cəmiyyətdə iqtisadi biliklərin

səviyyəsinin aşağı olmasından irəli gəlir. İqtisadi biliklər yüksəldikcə adamlar cəmiyyətin quruluşu, iqtisadiyyatın sahələri, iqtisadiyyatla siyasətin qarşılıqlı əlaqəsinin rolu, iqtisadi sistemin strukturu, iqtisadi subyektlərin qarşılıqlı təsirləri, bazar iqtisadiyyatında dövlətin rolu, hüququn əsasları və s. kimi anlayışların mahiyyətini anlayırlar. Həmçinin, vətəndaşlar həyati əhəmiyyətli məsələlərin həlli (müxtəlif vəziyyətlərdə qərarları qəbul edə bilmələri) üçün mülkiyyətdən istifadə etmə, ona malik olma, onun qorunması vasitələrinin seçilməsi, həm də iqtisadi münasibətlərin digər sahələri üzrə biliklərə malik olurlar. Bütün bunlar kütləvi iqtisadi təhsil sisteminin yaradılması zəruriliyini şərtləndirir. Orta ümumtəhsil məktəblərində şagirdlərə iqtisadiyyat haqqında maksimum biliklərin verilməsi, iqtisadi biliklərin təməlinin qoyulmasına əlverişli zəmin yaradır.

Hazırda dinamik cəmiyyətimiz üçün biznes və idarəetmə sahələrində uğurla işləməyə hazır olan yeni ixtisaslı peşəkarlara tələb artır. Bu da öz növbəsində böyüyən nəslə yüksək keyfiyyətli iqtisadi biliklərin verilməsini zəruri edir.

Peşəkarcasına iqtisadi və hüquqi biliklərə yiyələnmək, problemləri müstəqil həll etmək, komandada birgə fəaliyyət göstərmək, riskə getmək, təşəbbüskarlıq, təhsil səviyyəsinin qaldırılmasına olan cəhdlər və s. xüsusi dəyərə malikdir. İqtisadi səriştənin olmasından başqa, şəxsiyyətdən həm də şəxsi məsuliyyət, əmək mədəniyyəti və əmək etikasını müəyyən edən digər keyfiyyətlər də tələb olunur ki, bunların da əsasında iqtisadi biliklər durur.

Sistemli iqtisadi biliklərin verilməsi respublikamızda müasir təhsilin qurulmasında mühüm amillərdəndir. İqtisadi təhsilin fasiləsizliyi tələb olunan iqtisadi səriştənin (biliyin, bacarığın) yaradılmasına, insan kapitalının formalaşdırılmasına və şəxsiyyətin inkişafına yeni təkan verir. Onun əsasını təşkil edən məktəb təhsili isə strateji xarakter daşıyır. Buna görə də şagirdlərin məktəbdə aldığı iqtisadi bilik gələcəyə investisiya sayılır. Bütün bunlar şagirdlərin iqtisadi təhsil sahəsindəki problemlərin həllini indiki dövrün aktual tələbləri səviyyəsinə qaldırır.

Dərin struktur dəyişiklikləri, sosial-iqtisadi inkişafın yeni şərtləri, qarşıda duran vəzifələrin miqyası və mürəkkəbliyi, müasir iqtisadi təhsilin düzgün işlənib hazırlanması və s. kimi məsələlər şagirdlərdə iqtisadi biliklərin formalaşmasının

təkmilləşdirilməsini ciddi surətdə tələb etdiyindən belə bir mövzunun tədqiq edilməsinə zərurət yaratmışdır.

Şagirdlərin iqtisadi təhsil və tərbiyəsinə aid ötən illər ərzində xeyli tədqiqatlar aparılmışdır. Belə ki, görkəmli pedaqoqlar P.P.Blonski, A.S.Makarenko, V.A.Suxomlinski və başqalarının nəzəri tədqiqatlarında və praktiki təcrübələrində sübut etmişlər ki, uşaqların və yeniyetmələrin maddi nemətlərin istehsalında bilavasitə iştirakı onlara iqtisadi dəyişikliklərin mahiyyətini dərk etməyə imkan verir.

V.K.Draçov, A.Q.Zdravomıslov, V.P.Tuqarixov, A.K.Uledov tədqiqatlarında iqtisadi tərbiyənin tərbiyəni digər istiqamətləri ilə qarşılıqlı əlaqədə nəzərdən keçirmişlər.

B.M.Bim-bad, A.V.Petrovski, İ.S.Kon, A.İ.Paramonov və b. əsərlərində şagirdlərin bazar iqtisadiyyatı şəraitinə adaptasiya etməsi, onların bu şəraitdə uğurla sosiallaşmasının mahiyyəti və şərtlərini təhlilə cəlb etmişlər.

İqtisadi biliklərin formalaşdırılması problemi iqtisadçılar L.Nikiforova, V.Çeberyak, V.D.Simonenko, D.Fomin və b. əsərlərində də geniş işıqlandırılır.

Şagirdlərin iqtisadi təhsilinin məzmunu, təşkili və metodikası A.F.Amedin, A.S.Prutçenkovun, B.A.Ryazberqin və b. əsərlərində geniş tədqiq olunur.

Şagirdlərin əmək və peşə hazırlığı məsələlərini təhlil etməklə problemin tədqiqinə P.R.Atutov,V.A.Polyakov, İ.A.Sasova, Y.P.Averiçev və b. müəyyən xidmətlər göstərmişlər. Bu baxımdan, həmçinin fənlərin tədrisi prosesində şagirdlərin iqtisadi təhsilə və tərbiyəyə yiyələnməsinin zəruriliyinə dair müəyyən fikir söyləyən respublikanın alimləri və tədqiqatçıları da az deyildir. Ə.Ş.Həşimov, N.M.Kazımov, Ə.Ə.Ağayev, A.N.Abbasov, M.T.Bayramov, H.Hacıyeva, N.İsrafilov, S.M.Zeynalov, M.H.Nəzərov və başqaları dərsdə və dərsdənkənar tədbirlərdə iqtisadi təhsil və tərbiyənin şagirdlərə mənimsədilməsinə dair maraqlı fikirlər söyləmişlər. Lakin onlar iqtisadi təhsil və tərbiyənin şagirdlərə öyrədilməsinin məqsəd və vəzifələrini keçmiş SSRİ məkanının tələblərinə uyğun surətdə tədqiq etmişlər. Həmçinin, coğrafiya, tarix, biologiya, insan və cəmiyyət fənlərinin tədrisi prosesində şagirdlərin iqtisadi biliklərinin məzmunu, səmərəli yolları, metodikası,

kompleks surətdə birbaşa tədqiqat obyekti olaraq işlənilməmişdir. Bu sahədə müəllimlərə elmi-pedaqoji və metodiki kömək edə biləcək məqalə, vəsait, əsər demək olar ki, xeyli azdır. Buna görə də şagirdlərin iqtisadi biliklərinin mənimsənilməsinə yaranan müasir zərurət onun yeni tələblər baxımından tədqiq edilməsini vacib edir:

- Azərbaycan Respublikasının müstəqillik yolu ilə irəliləyişin, xalq təsərrüfatında baş verən dəyişikliklərin və iqtisadiyyatdakı yeniliklərin, şagirdlərin iqtisadi tərbiyəsinin müasir tələblər baxımından tədqiq edilməsinə və bu işin yeni sistemini, daha səmərəli mexanizminin yaradılmasına təsiri;
- şagirdlərin iqtisadi bilik sahəsində mövcud nəzəri və metodiki materialların azlığı, köhnəlməsi və SSRİ dövründə yazılmasını nəzərə alaraq bu sahədə müəllimlərin əlində ola biləcək səmərəli metodikanın yaradılmasının zəruriliyi;
- şagirdlərin iqtisadi bilik səviyyəsinin respublikanın bu günkü və gələcək sosial-iqtisadi inkişaf miqyasları tələblərinə tədricən uyğunlaşmaq məqsədi;
- azərbaycan dövləti və hökumətinin gənclərin iqtisadi təhsili qarşısında qoyduğu tələblərin həyata keçirilməsinə mütəxəssis köməkliyi göstərməyin vacibliyi;
- fənlərin tədrisində şagirdlərin iqtisadi görüş dairələrinin, iqtisadi tərbiyəsinin, peşəyönümünün tam bazar iqtisadiyyatı şəraitinin qanun və kateqoriyaları tələbləri səviyyəsinə uyğunlaşdırılması.

**Tədqiqatın obyekti** ümumtəhsil məktəblərində şagirdlərdə iqtisadi biliklərinin formalaşdırılması prosesidir.

**Tədqiqatın predmeti** ümumtəhsil məktəblərinin IX-XI siniflərində coğrafiya, biologiya, tarix, insan və cəmiyyət fənlərinin tədrisi prosesində şagirdlərdə iqtisadi biliklərinin formalaşdırılmasının optimal sisteminin yaradılmasıdır.

**Tədqiqatın fərziyyəsi. T**ədqiqatda aşağıdakı fərziyyə irəli sürülmüşdür:

Fənlərin tədrisi prosesində iqtisadi biliklərin mənimsənilmə imkanları müəyyənləşdirilərsə; nəzəri materialların izahı zamanı iqtisadiyyatla bağlı faktlar, rəqəmlər, iqtisadi qanun, kateqoriya və anlayışlar aydınlaşdırılarsa; şagirdlərin başqa fənlərin tədrisindən və həyatdan aldıqları iqtisadi anlayış və faktlardan

coğrafiya, biologiya, tarix, insan və cəmiyyət fənlərinin tədrisində istifadə edilərsə, iqtisadi bilik sahəsində müxtəlif tədbirlərə geniş yer verilərsə, şagirdlərin iqtisadi biliklərinin mənimsənilməsində daha yaxşı nəticələr qazanmaq olar və bunlar gələcəkdə onların həyata və peşə seçməyə hazırlanması işinə daha yüksək fayda verə bilər.

**Tədqiqatın məqsədi** ümumtəhsil məktəblərinin IX-XI siniflərində fənlərin tədrisi prosesində mənimsədilməsi zəruri olan iqtisadi biliklərin mahiyyəti və məzmununu müəyyənləşdirmək, onun aşılanmasının səmərəli yollarını, üsul və vasitələrini tədqiq etmək, bu sahədə fənn müəllimlərinə elmi-pedaqoji, metodik kömək göstərmək, şagirdlərdə iqtisadi təhsilin və sivil iqtisadi davranış normalarına uyğun vərdişlərin əsas səviyyəsini təşkil edən biliklərin məktəblilərdə formalaşdırılması istiqamətini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

1. Ümumtəhsil məktəblərində fənlərin tədrisi prosesində iqtisadi təhsilin verilməsinin zəruriliyini və mahiyyətini aşkara çıxarmaq.

2. Ümumtəhsil məktəblərində müvafiq fənlərin iqtisadi bilik üzrə imkanlarının araşdırılması və aşkara çıxarılması.

3. Fənlərin məzmununa uyğun iqtisadi məsələlərə aid bilik, bacarıq və vərdişlərin öyrədilməsinin səmərəli yollarının müəyyənləşdirilməsi.

4. Ümumtəhsil fənlərinin tədrisi prosesində iqtisadi biliklərin mənimsənilməsinin məzmunu, forma və yollarının daha da təkmilləşdirilməsinə xidmət edən müddəaların hazırlanması.

5. İqtisadi biliklərin verilməsinin mövcud metodikasının təkmilləşdirilməsi.

6. Ümumtəhsil məktəblərində fənlərin tədrisi prosesində iqtisadi biliklərin aşılanması üzrə mütərəqqi metodikanın hazırlanması.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji gerçəkliyin, fant hadisə və proseslərin dərk edilməsi və dəyişdirilməsinin prinsip, metod, vasitə və nəzəri müddəaları təşkil edir.

**Tədqiqatın metodları**: nəzəri təhlil, müşahidə, müqayisə, yazılı mənbələrin öyrənilməsi, ədəbiyyatların öyrənilməsi və təhlili, müəllimlər, şagirdlər və məktəb

rəhbərləri ilə söhbətlər, qabaqcıl təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi, anket sorğusu, pedaqoji eksperiment.

**Tədqiqatın eksperimental bazası**: Bakı şəhərinin 61, 70, 258, 277 saylı, Sumqayıt şəhər 16 saylı, Quba rayonundakı 1, 2, 4, 5 saylı şəhər, Digah, Rustov və Vladimirovka kənd, T.Abbasov adına Dəvəçi şəhər 1 saylı, Siyəzən şəhər 3 və 5 saylı və 73 saylı Ağdam rayon orta məktəbləri.

Tədqiqatın mərhələləri: eksperiment üç mərhələdə aparılmışdır. Birinci mərhələ 2003-2006-cı illəri əhatə edir. Bu mərhələdə IX-XI sinif şagirdlərinin, iqtisadi bilik, bacarıq və vərdişlərin vəziyyəti yoxlanılmış, müəyyənləşdirici eksperiment aparılmışdır.

İkinci mərhələ 2007-2009-cu illəri əhatə edir. Bu mərhələdə müəyyənləşdirdiyimiz fərziyyələr və metodika Bakı şəhəri 277 saylı, T.Abbasov adına Dəvəçi şəhər 1 saylı, Siyəzən şəhər 3 və 5 saylı, Quba şəhər 2 saylı Digah və Rustov kənd orta məktəblərində kontrol və eksperimental siniflərdə təcrübədən keçirilmişdir.

Üçüncü mərhələ 2010-2012-ci illəri əhatə edir. Bu mərhələdə eksperimental işlər yekunlaşdırılmış, nəticələr ümumiləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** aşağıdakılardan ibarətdir:

1) orta məktəbdə tədris prosesi ilə bağlı şagirdlərə çatdırılması zəruri olan iqtisadi biliklərin mahiyyəti müəyyənləşdirilmiş;

2) tədris prosesində iqtisadi biliklərin verilməsi imkanları, səmərəli yolları haqqında zəruri müddəalar, tövsiyələr və bu yollara əsaslanan metodika hazırlanmış;

3) iqtisadi bilik sahəsində pedaqogika və metodika elmini (habelə iqtisadi nəzəriyyəni) daha da zənginləşdirən ümumi nəzəri mülahizələr, qaydalar hazırlanmış;

4) orta məktəbdə fənlərin tədrisi prosesində şagirdlərdə iqtisadi biliklərin formalaşdırılmasının optimal bir sistemi işlənib hazırlanmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti** fənlərin tədrisi prosesində iqtisadi biliklərin aşılanması üzrə müəllimlərin və pedaqoji işçilərin geniş şəkildə istifadə edə biləcəyi «iş sistemi», metodik tövsiyələr və səmərəli təkliflərin işlənilməsindən ibarətdir. Bu

iş şagirdlərin iqtisadi tərbiyəsində və peşəyönümlü işlərində müəllimlərə faydalı metodik kömək ola biləcəkdir.

**Tədqiqatın elmi yeniliyi t**ədqiqatda iqtisadi biliklərin verilməsi sahəsində pedaqogika elmini daha da zənginləşdirən ümumi elmi müddəaların, tövsiyyələrin və bu sistemə əsaslanan metodikanın hazırlanması, müvafiq fənlərin tədrisi prosesində iqtisadi biliklərin verilməsinin imkanlarının aşkara çıxarılması, şagirdlərin iqtisadi bilik səviyyəsinin respublikanın mövcud sosial-iqtisadi inkişafının miqyas və tələblərinə tədricən uyğunlaşdırılması istiqamətində optimal iş sisteminin işlənib hazırlanması və bu sahədə səmərəli iş metodikasının işlənilməsindən ibarətdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Orta məktəblərdə tədris prosesində iqtisadi biliklərin mahiyyəti, məqsədi və vəzifələrinin düzgün dərk edilməsi və təlim-tərbiyə prosesində onun aşılanmasına sistemli və məzmunlu yanaşma şagirdlərdə iqtisadi biliklərin formalaşmasına yaxından kömək göstərən amildir.

2. Orta məktəbdə əlaqədar fənlərin tədrisi prosesində şagirdlərdə iqtisadi təhsil və tərbiyə işlərinin aparılması dövlətimizin iqtisadi qüdrətinin artırılması işində potensial təməldir.

3. Orta təhsil pilləsində şagirdlərin iqtisadi təhsil və tərbiyəsinə sistem kimi yanaşılması fənlərin daxili əlaqəsini təmin etməklə şagirdlərdə iqtisadi təfəkkürün formalaşmasına əsaslı təsir göstərir.

4. Tarix, insan və cəmiyyət, coğrafiya və biologiya fənlərinin tədrisi prosesində iqtisadi biliklərin formalaşmasını təmin edən prinsiplərin, işin məzmununun və səmərəli yolların müəyyənləşdirilməsi buna uyğun metodikadan və təlim texnologiyalarından istifadə edilməsi, şagirdlərin iqtisadi biliklərinin formalaşdırılmasının sistemini təşkil edir.

5. Orta təhsil pilləsində şagirdlərin müxtəlif fənlərin tədrisi prosesində və dərsdənkənar iş zamanı iqtisadi təhsil və tərbiyə işlərinin düzgün təşkili və aparılması onların peşəyönümünün səmərəli həllində mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi**. Tədqiqatın nəticələri respublika elmi-praktik konfranslarında, seminarlarda, pedaqoji mühazirələrdə müzakirə edilmiş, mövzu üzrə materiallar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda, 6 məqalə (1-i xaricdə) və bir məruzə tezisi şəklində çap edilmişdir.

Dissertasiyanın strukturu: Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## Dissertasiyanın əsas məzmunu:

Girişdə tədqiqatın mövzusunun aktuallığı əsaslandırılmış, onun məqsədi, vəzifəsi, obyekti, predmeti, işçi fərziyyə formulə edilmiş, tədqiqatın metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti xarakterizə olunmuş, müdafiəyə təqdim olunmuş əsas elmi müddəalar və tədqiqatın aprobasiyası şərh edilmişdir.

**"İqtisadi biliklərin verilməsi üzrə işin nəzəri və didaktik əsasları"** adlanan birinci fəsildə iqtisadi biliklərin verilməsi üzrə işin nəzəri-didaktik əsasları şərh edilir. 1) iqtisadi biliklərin formalaşması probleminin mahiyyəti, 2) problemin nəzəri, pedaqoji ədəbiyyatda, proqram və dərsliklərdə qoyuluşu və 3) problemlə əlaqədar məktəbdə vəziyyət adlı üç yarımfəsildən ibarət olan bu fəsildə ümumtəhsil məktəblərinin IX-XI siniflərində şagirdlərə iqtisadi biliklərin verilməsinin elmi-nəzəri və pedaqoji əsasları öz əksini tapır. İqtisadi biliklərin mənimsənilməsinin məzmunu, mahiyyəti, məqsədi və ona verilən müasir tələblər şərh olunur.

**"İqtisadi biliklərin formalaşdırılması probleminin mahiyyəti"** adlanan 1-ci yarımfəsildə qeyd olunur ki, orta ümumtəhsil məktəblərində ayrı-ayrı fənlərin öyrənilməsində formalaşdırılan iqtisadi biliklərin əsas məqsədi gündəlik həyatda, o cümlədən gələcək əmək fəaliyyətində obyektiv surətdə zəruri olan ən ümumi iqtisadi bilik və bacarıqlar sisteminə şagirdlərin qabaqcadan yiyələnmələrini təmin etməkdir. Vətəndaşların həyati əhəmiyyətli məsələlərinin həlli üçün onlar mülkiyyətdən istifadə etmə, ona malik olma, onun qorunması vasitələrinin seçilməsi, iqtisadi münasibətlərin digər sferaları sahələrində iqtisadi biliklərə malik olmalıdırlar. Onlar qənaətcillik, təbii sərvətlərdən düzgün istifadə edə bilmək və s.

keyfiyyətlərə yiyələnməlidirlər. Bunlar isə kütləvi iqtisadi təhsil sisteminin yaradılması zəruriliyini şərtləndirir.

Respublikamızın iqtisadiyyatının sürətlə inkişaf etdiyi indiki dövrdə, eyni zamanda dinamik cəmiyyət üçün bazar, biznes və idarəetmə sferalarında uğurla işləməyə hazır olan yeni ixtisaslı peşəkarlar tələb olunur. Bu da öz növbəsində məzunlarını gələcək peşə fəaliyyətinə hazırlamaq iqtidarında olan müəllimlərə tələbatı artırır. Yeni şəraitdə əsasən əmək bazarı müasir mütəxəssislərə olan tələbləri formalaşdırır. İqtisadi və hüquqi biliklərə yiyələnmək problemlərini peşəkarcasına müstəqil həll etmək, kollektivdə birgə fəaliyyət göstərmək, riskə getmək, təşəbbüskarlıq, təhsil səviyyəsinin qaldırılmasına olan cəhdlər və s. xüsusi dəyərə malikdir. İqtisadi səriştənin olmasından başqa şəxsiyyətdən həm də şəxsi məsuliyyət, əmək mədəniyyəti və əmək etikasını müəyyən edən digər keyfiyyətlər də tələb olunur. Belə ki, biznes sferasında iş üçün kompleks dinamik vəziyyətin oriyentasiyası, hüquqi normalara uyğun olaraq partnyorlarla qarşılıqlı hərəkətdə olmaq səriştəsi, lider rolunu öz üzərinə götürmək və məqsədli fəaliyyət prosesində qərarları qəbul etməklə əlaqədar bilik və vərdişlərin olması zəruridir. Menecerlərdə isə qarşısına düzgün məqsəd qoymaq bacarığının olması və keyfiyyətli nəticələr əldə olunması, kollektivin işinin və öz fəaliyyətinin planlaşdırılması, problemlərin müəyyən edilməsi və münaqişələrin həll edilməsi, tabe etmək və idarə etmək bacarığının olması daha vacibdir. Bu baxımdan hələ ümumtəhsil məktəbində təhsil alarkən gənclərimizə iqtisadi biliklərin verilməsi zəruri amilə çevrilir.

Birinci fəslin “Problemin nəzəri pedaqoji ədəbiyyatda proqram və dərslikdə qoyuluşu” adlanan 2-ci yarımfəslində qeyd olunur ki, Azərbaycan məktəblərində istifadə olunan iqtisadiyyat üzrə tədris proqramları yuxarıda sadalananların müəyyən qismini özündə ehtiva edir. Belə yanaşmada iqtisadiyyat dərslərində öyrənmə predmetinin əsas sahəsi (mövzu sahəsi) ancaq iqtisadi sistemin özü olur. Digər sistemlər nəzərə alınmır, çünki iqtisadiyyatın və cəmiyyətin ümumən başa düşülməsi üçün oriyentasiya nəzərdə tutulmur. Fikrimizcə, ilk anlayış ilk növbədə orta məktəblərdə formalaşdırılmalıdır, çünki bu, məktəblilərin dünyagörüşünün inkişafına və iqtisadiyyat elmi haqqında obyektiv təsəvvürlərin

formalaşdırılmasında əlverişli zəmindir. Dissertasiyada bu məsələlər geniş şəkildə öz əksini tapır.

Dissertasiyada qeyd olunur ki, müasir məktəb şagirdlərinin iqtisadi təhsilini təkmilləşdirmək və inkişaf etdirmək tələb olunur.

Məktəblilərin iqtisadi təhsilinə indi və gələcəkdə həyata və fəaliyyətə hazırlıq vasitəsi kimi baxılmalıdır. Buna görə də iqtisadi baxışların başa düşülməsi üçün məktəbdə iqtisadi təhsilin inkişafı konsepsiyasının müəyyənləşdirilməsi məqsədəuyğun hesab edilməlidir.

"Problemlə əlaqədar məktəbdə vəziyyət" adlanan 3-cü yarımfəsildə qeyd olunur ki, ümumtəhsil orta məktəblərində iqtisadi biliklərin öyrədilməsi bir neçə mərhələdən ibarət olmalıdır. Aşağı siniflərdə iqtisadi biliklərin tədrisi iqtisadiyyatla tanışlıq xarakteri daşımalıdır. Bu siniflərin uşaqları üçün diqqət ayırdıqda sadə məfhumların üzərində olmalı, şərhetmə bədii, emosional, maraqlı oyun formasında aparılmalıdır.

Orta sinif şagirdlərinin iqtisadi təfəkkürünün formalaşdırılmasının xüsusiyyətləri və öyrənilən məfhumların sərhədlərinin genişləndirilməsi onların xüsusiyyətlərinin, funksiyalarının, faktorlarının, iqtisadi mülahizələrinin müəyyən edilməsi ilə bağlı olduğundan orta pillədə (V-VIII siniflər) materialın emosional qavranılmasına əsaslanan iqtisadiyyat elmi haqqında ümumi elmi təsəvvür formalaşdırılmalıdır. Bu yaşda şagirdlər iqtisadi biliklərə müasir ümumi təhsillərinin üzvi hissəsi kimi münasibət bəsləyirlər.

Yuxarı sinif şagirdlərinin sosial-psixoloji xüsusiyyətləri ümumiləşdirilmiş nəzəri və praktik biliklərin qavranılması ilə intellektual öyrənilmə üçün şərait yaradır. Bu da təsərrüfat məsələlərin konstruktiv həll edilməsi, iqtisadi qərarların qəbul edilməsi üçün zəruridir. Bu zaman iqtisadi dünyagörüşə, iqtisadi sistemlərin inkişaf və işləmə prinsiplərinə, təbiətin və cəmiyyətin universal qanunlarına, natamam biliklərin, faktorların, informasiyaların ümumiləşməsinə idrak marağı yaranır. Praktiki vərdişlərin və bacarıqların formalaşması davam edir. Bu baxımdan dissertasiyada yuxarı sinif şagirdlərinin iqtisadi tərbiyəsinin sisteminə geniş şəkildə yanaşılır.

Məktəb təhsili üçün təkcə nəyi tədris etmək yox, həm də necə tədris etməyi bilmək vacibdir. Burada, məhz xüsusi dinamikanı müşahidə etmək olar. Bir neçə il bundan əvvəl yenilik olan bir çox məsələlər, təlim metodları və formaları indi hamı tərəfindən həyata keçirilməsi zəruri olan həqiqət sayılır. «İqtisadiyyatın əsasları» fənninin proqramının təhlili göstərir ki, bu proqram konsentrik prinsip üzrə qurulmuşdur. Hər bir pillədə öyrənilmiş suallara qayıdılır, onlar genişləndirilir, dərinləşdirilir və hətta yeni problemlər əlavə edilir ki, bu da şagirdlərdə iqtisadi təsəvvürlərin genişlənməsində mühüm rol oynayır.

Təhsilin uğuru bir çox hallarda təhlilin metodlarından asılı olur. Şərh edilən iqtisadi konsepsiyaların mürəkkəblik dərəcəsinə çox vaxt sualların öyrənilməsi üçün seçilmiş müəyyən qarşılıqlı əlaqəli metodik faktorlar, istifadə edilən material, sürət və şərh etmə keyfiyyəti təsir göstərir. Hazır biliklərin məqsədyönlü öyrədilmə metodlarının və fikri mühakimələrin, onların mənimsənilməsi üzrə fəaliyyət vasitələrinin və öyrədilmə metodlarının əlaqələndirilməsini, iqtisadi faktların, məsələlərin həllinin şagirdlər tərəfindən müstəqil «kəşflərini» stimullaşdıran metodları göstərmək olar. Təcrübə göstərir ki, tədrisin fəal formaları, xüsusilə, işgüzar oyunlar fənnə marağı artırır, dəyərin özünəməxsusluğunu yaşamaq, onu öz üzərində həyata keçirmək, nəticə çıxarmaq, bununla da möhkəm biliklər almaq üçün şərait yaradır. Dissertasiyada yuxarı sinif şagirdlərinin iqtisadi bilikləri dərindən mənimsəmələri üçün bu metodlardan istifadə imkanları geniş şəkildə öz əksini tapır.

İkinci yarımfəsildə şagirdlərin iqtisadi təhsili və tərbiyəsi problemi üzrə nəzəri və pedaqoji ədəbiyyatlar nəzərdən keçirilir, onlara münasibət bildirilir. Ayrı-ayrı fənlərin proqramı və dərsliklərində problemin necə əks olunduğu təhlilə cəlb edilir. Dissertasiyada əsaslandırılır ki, keçmiş ittifaq dövründə bu sahədə müəyyən tədqiqatlar aparılmış, nəzəri və praktik işlər görülmüşdür. Lakin suveren və müstəqil bir dövlətin iqtisadi siyasətinin möhkəmləndirilməsi üçün gələcək cəmiyyət üzvlərinə daha dərin və mükəmməl iqtisadi biliklər aşılamaq tələb olunur.

Problemlə bağlı məktəblərimizdə də mövcud imkanlardan belə səmərəli istifadə olunmur. Fənlərin imkanları bütövlükdə üzə çıxarılmır və şagirdlərə çatdırılmır. Üçüncü yarımfəsildə bu məsələ geniş şərh edilir.

Tədris prosesində şagirdlərin iqtisadi təhsilin mənimsəmələrinin gedişini, məktəb sənədlərini, pedaqoji kollektiv rəhbərlərinin, müəllim və şagirdlərin bu işə münasibətini aydınlaşdırmaq məqsədilə bir neçə il ərzində Azərbaycan Respublikasının bir sıra məktəblərinin işi ilə yaxından tanış olmuş, sorğu, müşahidə, təhlil, müqayisə, ümumiləşmə aparmış, nəticə çıxarmış, təkliflər vermişik.

Bakı şəhəri 61, 70, 258, 277 nömrəli, Sumqayıt şəhər 16 nömrəli, Nizami rayonundakı Ağdamın 73 nömrəli orta məktəbində, Quba şəhər 1, 2, 4, 5 nömrəli, Digah, Rustov, Vladimirovka kənd orta məktəblərində 250-dən artıq dərs dinləmiş, sinifdənxaric tədbirlərdə iştirak etmişik. Adları çəkilən rayonların təhsil şöbələrində, məktəblərdə problemlə bağlı müxtəlif işlər aparmışıq. Proqramların, dərsliklərin imkanları və şagirdlərin yaşadıqları regionun xüsusiyyətləri ilə bağlı əldə etdikləri iqtisadi biliklərin səviyyəsini üzə çıxarmaq üçün müxtəlif siniflərdə anket sorğusu keçirmişik.

Dissertasiyada təlim prosesində şagirdlərə iqtisadi biliklərin aşılanmasında müəllimlərin işdəki çatışmazlıqlarının səbəbləri (bu sahədə qabaqcıl təcrübənin zəif yayılması, elmi-pedaqoji, metodik ədəbiyyatın azlığı, tədrisdə xeyli qüsurlara yol verilməsi, problemin həllinə elmi surətdə, sistem halında yanaşmaması və s.) təhsilə cəlb edilmiş problemin həlli yolları göstərilmişdir.

**«Təlim prosesində iqtisadi biliklərin mənimsənilməsi yolları»** adlanan ikinci fəsildə iqtisadi biliklərin məzmununun seçilməsi üçün tələblər göstərilmiş, coğrafiya, biologiya, tarix, insan və cəmiyyət fənlərinin tədrisi prosesində iqtisadi biliklərin şagirdlərə mənimsənilməsinin səmərəli yolları tədqiq edilmiş və bunlara aid nümunə dərsləri verilmiş, tədqiqatın məqsədinə uyğun ayrı-ayrı fənlərin imkanları, rolu və onların tədrisi prosesində müəllimlərin istifadə edə biləcəyi metodika və təlim texnologiyaları şərh edilmiş, araşdırılmışdır.

II fəslin "Tarix fənninin tədrisi prosesində iqtisadi biliklərin verilməsi yolları" adlanan 1-ci yarımfəslində göstərilir ki, şagirdlərin iqtisadi təhsili və tərbiyəsi üçün tarix dərsləri çoxtərəfli şərait yaradır. Bu şəraitdən bacarıqla və səmərəli istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Fəslin birinci yarımfəslində fənn kurikulumlarının tələbləri baxımından tarix fənninin tədris imkanları tətbiq edilir.

Müasir dövrdə fənn üzrə kurikulumun hazırlanması cəmiyyətdə baş verən bir sıra sürətli dəyişikliklərlə bağlıdır. Həmin dəyişikliklər aşağıdakılardan ibarətdir:

- iqtisadiyyatın inkişafında elm, təhsil və texnologiyaların üstün rol oynaması;
- informasiyanın dünya iqtsadiyyatının əsas resurslarından birinə çevrilməsi, milli, regional və dünya iqtisadiyyatının informasiya texnologiyaları və telekommunikasiyalar əsasında inteqrasiyası;
- cəmiyyətin sosial, siyasi və mənəvi həyatında, iqtisadiyyatın bütün sahələrində informasiya texnologiyalarının tətbiqi ilə əlaqədar texnoloji yeniliklərin faizsiz inkişafı;
- əhalinin peşə məşğulluğunun strukturunun dəyişməsi, informasiyaların istehsalı, yayılması, mühafizəsi, ötürülməsi ilə əlaqədar fəaliyyət göstərən qrupların cəmiyyətdə rolunun genişlənməsi;
- şəxsiyyətin, sosial təbəqələrin və bütövlükdə cəmiyyətin sosial statusunun müəyyən edilməsində təhsilin əsas rol oynaması.

Bu dəyişikliklər cəmiyyətin üstün inkişafını səciyyələndirməklə, onu həyata keçirən, formalaşdıran insanın təfəkkür, əxlaqi-mənəvi cəhətdən yetkinləşməsini, dünyagörüşünə yiyələnməsini mühüm tələb kimi qarşıya qoyur. Tarixi fakt və hadisələrin, şəxsiyyətlərin bu prosesdə faydalılığı daha qabarıq görünür. Onları sadəcə sadalamaq, yadda saxlamaq deyil, müqayisələr aparmaq, analiz, sintez etmək, ümumiləşdirməklə şəxsiyyətin inkişafına yönəltmək mühüm vəzifələrdən birinə çevrilir. Bu mənada ümumi tarix fənni kurikulumunun şəxsiyyətyönümlü xarakteri onun müasir səciyyəvi keyfiyyətlərindən biri kimi qeyd olunur.

Yarımfəsildə əsaslandırılır ki, tarixin öyrənilməsi dünyagörüşün formalaşmasına, ictimai inkişafın iqtisadi qanunauyğunluqlarının dərk edilməsinə, nəzəriyyə ilə praktikanın bir-biri ilə əlaqələndirilməsinin tərbiyə edilməsinə şərait yaradır. İctimai-iqtisadi hadisələri təhlil edərkən, müəllim uşaqlarda belə bir biliyi formalaşdırır ki, cəmiyyətin inkişafının əsas şərti maddi istehsaldır. Tarix dərslərində mövzuların müzakirəsi dəqiq metodoloji mövqeyə, tarix və məntiqin vəhdətinə, ümumi və xüsusinin dialektikasına əməl etməklə aparılmalıdır. Müəllimin əsas vəzifəsi tarixi materialların öyrənilməsini şagirdlərdə yüksək sosial

fəallıq və məsuliyyət hissinin formalaşdırılması məslələri ilə dialektik şəkildə əlaqələndirməkdir. Bu baxımdan tarix fənni şagirdlərə iqtisadi biliklərin aşılanması sahəsində də geniş imkanlara malikdir.

Tədqiqatlar göstərir ki, tarix fənninin tədrisində şagirdlərdə iqtisadi təfəkkürün formalaşdırılmasının mühüm vasitəsi problemli təlimdir. Belə tədris nəticəsində şagirdlərin əqli imkanlarını son dərəcədə fəallaşdırmaq, yaradıcı təfəkkür vərdişlərini formalaşdırmaq mümkün olur. Bu imkanları nəzərə alaraq tarix fənninin tədrisində problemli təlimin müxtəlif formalarından istifadə etmək olar: problemli şərh, qismən axtarıcılıq və tədqiqatçılıq metodudur.

İkinci fəslin 2-ci yarımfəslində "Coğrafiya fənninin tədrisi prosesində iqtisadi biliklərin verilməsi yolları" tədqiqata cəlb olunur. Yarımfəsildə qeyd olunur ki, iqtisadi təfəkkürün formalaşmasında "Dünyanın iqtisadi və sosial coğrafiyası" bölməsinin rolu böyükdür. İqtisadi və sosial coğrafiyanı öyrənərkən şagirdlər dünyanın təbii resursları, ekoloji problemləri, bu problemlərlə bağlı olan demoqrafiq vəziyyəti, ETİ, onun təsərrüfat sahəsi və ərazi strukturuna təsiri, müasir dünya inkişafının qloballaşması haqqında biliklər əldə edir, müasir dünya təsərrüfatında qüvvədə olan qanunauyğunluqları hərtərəfli və sistemli öyrənirlər.

İqtisadi və sosial coğrafiyanın mənimsənilməsi şagirdlərdə iqtisadi təfəkkür formalaşdırır ki, bu da onlara cəmiyyətdə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi qanunauyğunluqlarını dərk etməyə imkan verir və onları dünyanın iqtisadi və sosial coğrafiyası kursunda öyrəniləcək iqtisadi anlayışların: «dünya təsərrüfatı», «beynəlxalq coğrafi əmək bölgüsü», «iqtisadi inteqrasiya», «dünya təsərrüfatının qloballaşması» və s. mənimsənilməsinə hazırlaşdırır. Müəllim iqtisadi inteqrasiyanın tükənməz üstünlüklərindən danışır, müasir dünya inkişafının dialektikasını izah edir. Bu baxımdan IX siniflərdə «Dünyanın təbii resurslarının coğrafiyası», «Ekoloji problemlər» bölməsində təbii resurslar və onların iqtisadi inkişafa təsiri, ətraf mühitin çirkləndirilməsi, ekoloji problemlər və bu problemlərin həlli yolları və s. məsələləri əhatə edən mövzular orta məktəb şagirdləri üçün iqtisadi tərbiyə və təhsil tapşırıqlarının yerinə yetirilməsində çoxlu materiallarla

zəngindir. Bütün bunlar məktəblilərdə yeni iqtisadi təfəkkürün formalaşmasına müsbət təsir göstərir.

Yarımfəsildə coğrafiyanın tədrisində şagirdlərin iqtisadi bilik səviyyəsini yüksəltmək üçün aşağıdakı formalardan istifadə edilməsinin faydalı olduğu əsaslandırılmışdır:

– iqtisadi məzmunda coğrafi məsələlərin həlli;

– dərsdə, referatların hazırlanmasında iqtisadiyyatın ayrı-ayrı sahələrində öyrənilən coğrafi problemlərdən, qanunlardan istifadə edilməsi;

– iqtisadi məzmunda ev tapşırıqlarının verilməsi;

– coğrafi biliklərin iqtisadiyyatda tətbiqinə dair materialları misallarla aydınlaşdırarkən tədris-idraki əsaslarla, eləcə də dərsdə problemli situasiya yaratmaqla iqtisadi tanışlıq və s.

İkinci fəslin üçüncü yarımfəsli "Biologiya fənninin tədrisi prosesində iqtisadi biliklərin verilməsi yolları" adlanır. Yarımfəsildə göstərilir ki, bu fənn iqtisadi biliklər aşılamaq baxımından geniş imkanlara malik olmaqla yanaşı müəyyən cəhətlərinə görə mürəkkəb quruluşa malikdir. Biologiya dərsində şagirdlərin iqtisadi tərbiyəsini müxtəlif forma və metodlarla, məsələn, öyrənilən materialın müvafiq iqtisadi qanun və kateqoriyaları ilə əlaqələndirilməklə, məktəbyanı təcrübə sahəsində müəyyən işlərin təşkili ilə, öyrənilən materialın yerli təsərrüfatın inkişaf praktikası ilə əlaqələrini müəyyən edilməklə, istehsalata ekskursiyaların təşkili və s. ilə vermək olar.

Bu fənnin öyrənilməsində başlıca məsələlərdən biri iqtisadi qanunların tələblərinə nəzərən şagirdlərə bioloji qanunlardan praktikada səmərəli istifadə edilməsinin yollarını izah etmək, biologiya elminin istehsalın səmərəliliyinin yüksəldilməsi ilə proporsional olmasını şagirdlərə inandırmaq əsas məsələlərdən biridir.

Şagirdlər bilməlidirlər ki, elmi-texniki tərəqqi şəraitində elm nəhəng məhsuldar qüvvəyə çevrilir. Müəllim uşaqlara başa salmalıdır ki, biologiya bu gün bilavasitə məhsuldar qüvvəyə çevrilmiş elmlərdəndir.

Materialın tədrisi zamanı «İnsanın yaratdığı ekosistemlər» kimi tədris filmindən istifadə etmək faydalıdır. Şagirdlərin iqtisadi biliklərinin formalaşması üçün yerli müəssisələrə ekskursiyaya gedib, onların ətraf mühitin mühafizəsi sahəsində gördükləri tədbirlərlə yaxından tanış olmaq mümkündür.

Yarımfəsildə biologiya fənninin tədrisi prosesində də şagirdlərə iqtisadi təhsil və tərbiyə verməyin geniş imkanları olduğu əsaslandırılır. Göstərilir ki, biologiya müəllimləri peşə etibarilə iqtisadçı olmasalar da, zəruri iqtisadi bilklərə malik olmalıdırlar.

Fəslin dördüncü yarımfəslində "İnsan və cəmiyyət fənninin tədrisində şagirdlərə iqtisadi biliklərin verilməsi yolları" adlanır. Bu yarımfəsildə göstərilir ki, ümumtəhsil məktəblərində şagirdlərdə iqtisadi biliklərin formalaşmasında «İnsan və cəmityyət» fənninin də özünəməxsus vəzifələri və üstünlükləri vardır. Bunların araşdırılmasının, onun yollarının müəyyən edilməsinin iqtisadi biliklərin formalaşmasında əhəmiyyəti böyükdür. «İnsan və cəmiyyət» fənni üzrə proqramların təhlili göstərir ki, fənnin bütün mövzularından şagirdlərin iqtisadi təfəkkürünün formalaşmasında istifadə etmək olar. Tədris prosesində iqtisadi bilikləri şagirdlərə mənimsətməklə, bu sahədə sistemli iş aparmaqla şagirdlərdə maraq, meyl yaratmaq və inkişaf etdirmək mümkündür. «İnsan və cəmiyyət» fənninin tədrisi prosesində şagirdlərə iqtisadi təhsil, tərbiyə və bilik verməyin geniş imkanları var. Bunun əhəmiyyəti indi və gələcək baxımından əvəzsizdir, çünki bu, şagirdlərin yeni iqtisadi münasibətlərə fəal, şüurlu qoşulması, gələcək istehsala indidən müvəffəqiyyətlə uyğunlaşması deməkdir. Bu fənnin tədrisi zamanı şagirdlər öyrənirlər ki, iqtisadi qanunlar insanların şüurundan asılı olmayaraq baş verir, maddi istehsal isə bütün ictimai münasibətlərin xarakterini müəyyənləşdirən həlledici amildir. Şagirdlər maddi istehsalın cəmiyyətin həyatında rolunu nə qədər dərindən dərk etsələr, onların həyat mövqeyi də bir o qədər möhkəm olar, ictimai faydalı əməyə daha asanlıqla uyğunlaşa bilər, bununla da öz torpağının, öz vətəninin həqiqi mülkiyyətçisi kimi yetişə bilərlər.

Fəsildə əsaslandırılır ki, tarix, coğrafiya, biologiya və insan və cəmiyyət fənlərinin orta məktəbdə tədrisi prosesində şagirdlərdə elmi dünyagörüşü forma-

laşdıran, iqtisadi bilikləri aşılayan biliklər sistemi yaradılır və onlar bu biliklərin iqtisadiyyatın müxtəlif sahələrində, sənaye və kənd təsərrüfatına, nəqliyyat və rabitəyə, məişət və təbiətə, mədəniyyətin müxtəlif sahələrinə tətbiqi ilə tanış edilir.

Dissertasiya işinin üçüncü fəsli **“Pedaqoji eksperimentin təşkili və nəticələri”** adlanır. Bu fəsildə tarix, insan və cəmiyyət, coğrafiya və biologiya dərslərində iqtisadi biliklərin formalaşdırılmasının səmərəli yolları eksperimentdən keçirilir.

Eksperiment apardığımız məktəblərdə şagirdlərin iqtisadi bilik, bacarıq və vərdişləri təxminən bərabər olan, 24 sinif müəyyənləşdirilmişdir. Onlardan 12-si eksperimental, 12-si kontrol (yoxlayıcı) siniflər olmuşdur.

Eksperiment və kontrol sinifləri müəyyənləşdirərək tərkib və hazırlıq səviyyələrinin uyğunluğu əsasında 4 il müxtəlif şagird kontingentində eksperiment apardıq. Eksperimental siniflərdə dərs bizim hazırladığımız metodika üzrə, kontrol siniflərdə isə ənənəvi qaydada aparıldı.

Mövzunun tədrisindən sonra ilin axırında eksperimental və kontrol siniflərdə şifahi və yazılı sorğular keçirildi, məruzə və referat hazırlanması prosesində əyani vəsaitlərin tərtib edilməsi təşkil edildi, şagirdlərin yaradıcılıq işləri, gündəlik qeydləri ümumiləşdirildi. Yoxlama yazı işləri, anket sorğularının cavabları şagirdlərin iqtisadi bilikləri baxımından təhlil edildi və ümumiləşdirildi. Eksperimentdə 350 şagird iştirak etmişdir. Həmin siniflərdə miüşahidələr aparılmış, dərslər dinlənilmiş, yazılı və şifahi sorğular keçirilmiş, şagirdlərin iqtisadi biliklərə yiyələnmə səviyyələri geniş təhlil olunmuşdur.

Eksperimentin sonunda müəllim və valideynlərlə aparılan söhbətlərdən, şagirdlərin anket və test cavablarından, yaradıcılıq işlərindən (referat, albom, əyani vəsait, yığılmış sərgi materialları və s.) məlum olur ki, eksperimental sinif şagirdlərinin iqtisadi bilik səviyyələri özünün məzmunluluğu və müstəqilliyi ilə seçilir. Onlar iqtisadi təhsillə bağlı tədbirlərdə, əməkçilərlə, veteranlarla görüşlərdə, zəhmətkeşlərə müvafiq işdə kömək edilməsi işlərində fəal iştirak edirlər. Çox vaxt özləri bu kimi tədbirlərin təşəbbüskarı olurlar. Məktəblərin bir çoxunda bu cür

şagirdlərin təşəbbüsü ilə «Qənaətçilər briqadası», «Gənc bağbanlar briqadası», «Gənc iqtisadçılar» dərnəkləri fəaliyyət göstərir.

Eksperimentin nəticələrinin ümumiləşdirlməsi göstərir ki, irəli sürdüyümüz fərziyyəyə əsasən özünü doğrultmuşdur.

Tədqiqat aşağıdakı ümumiləşmiş **nəticələrə** gəlməyə əsas verir:

1. Respublikamız müstəqillik yolu ilə irəlilədiyi dövrdə insanlarda təsərrüfatçılıq, əməyə qənaətcillik münasibəti bəsləməkdən ibarət olan iqtisadi təhsil və tərbiyə məsələləri mühüm əhəmiyyət kəsb edir.

2. Yeni iqtisadi münasibətlər, bazar strukturunun yaranması məktəb qarşısında yeni və cəmiyyət üçün vacib məsələlər qoyur. Bu şagirdlərdə ilkin iqtisadi və sahibkarlıq fəaliyyətinin lazımi səviyyədə təminatı ilə bağlı məsələlərdir.

3. Orta məktəblərdə hüquqi biliklərlə yanaşı, sistemli iqtisadi biliklərin də verilməsi iqtisadi şəraitin yaradılmasına, insan kapitalının formalaşdırılmasına və şəxsiyyətin hərtərəfli inkişafına təkan verir. Onun əsasını təşkil edən məktəb təhsili isə strateji xarakter alır. Buna görə də şagirdlərin məktəbdə aldığı iqtisadi biliklər gələcəyə investisiya sayılır.

4. Şagirdlərdə iqtisadi biliklərin formalaşdırılması və təkmilləşdirilməsi üçün orta məktəb fənlərinin imkanlarından geniş şəkildə istifadə olunmalıdır. Tədqiqat işində tarix, coğrafiya, biologiya, insan və cəmiyyət fənlərinin tədrisi prosesində məktəblilərin iqtisadi bilikləri mənimsəmələri yollarına, bu sahədə məktəb təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsinə xüsusi yer verilmişdir. Bu fənlərin öyrənilməsində formalaşdırılan iqtisadi biliklərin əsas məqsədi gündəlik həyatda, o cümlədən gələcək əmək fəaliyyətində zəruri olan ən ümumi iqtisadi bilik və bacarıqlar sisteminə şagirdlərin qabaqcadan yiyələnmələrini təmin etməkdir.

5. Fasiləsiz iqtisadi təhsil cəmiyyətin və şəxsiyyətin inkişafı kontekstində mühüm əhəmiyyət kəsb edib. Bu problem bir çox ölkələr kimi Azərbaycan üçün də aktualdır. Müasir dinamik dünya insan qarşısında daim müxtəlif problemlər qoyur, qeyri-müəyyənlik şəraitində vacib qərarların tez bir zamanda qəbul olunmasını tələb edir. Bu, müasir sivilizasiyanın mühüm səciyyəvi cəhətlərindən biridir.

6. Məktəbdə iqtisadi təhsilin inkişaf konsepsiyasının müəyyən olunmasını məqsədəuyğun hesab edirik. Bu konsepsiyanı müəyyən edərkən ictimai sistem, ətraf, sosial mühit, gələcək ixtisas, iqtisad elminin vəziyyəti, məktəbdə tədris prosesinin təşkili, məktəblilər və valideynlər, müəllimlər, məktəbli şəxsiyyəti kimi məsələlər nəzərə alınmalıdır. Məktəblərdə iqtisadi təhsil ümumtəhsil xarakteri daşımalıdır. Bununla əlaqədar komunikativlik, adaptivlik nəzərə alınmalıdır.

7. Tədris prosesində şagirdlərə cəmiyyətdə müxtəlif əmək növləri, xalq təsərrüfatının ümumi strukturu və sahələri, müxtəlif peşələrin iqtisadi səmərəsi, onların inkişafının xüsusiyyətləri, respublikanın iqtisadi potensialı, sərvətləri, müəssisələrin kadrlara olan ehtiyacı və gələcək tələbatı, müasir dövrdə daha böyük ehtiyac duyulan peşə və ixtisasların çatdırılması onların iqtisadi biliklərinin formalaşdırılmasında xüsusi yer tutur.

8. Şagirdlərin iqtisadi bilikləri bütün ictimai-iqtisadi formasiyalarda olduğu kimi bu gün də aktuallıq kəsb edir. Orta məktəbdə mürəkkəb bir proses olan iqtisadi biliklərin şagirdlərə mənimsədilməsi prosesini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- şagirdlərdə iqtisadi təhsilə marağın yaradılması;
- iqtisadi anlayışların formalaşması və ümumiləşdirilməsi;
- iqtisadi biliklərin möhkəmləndirilməsi, təkmilləşdirilməsi, bilik, bacarıq və vərdişlərin aşılanması;
- iqtisadi bilik, bacarıq və vərdişlərin praktiki tətbiqi;
- şagirdlərin müvəffəqiyyətinin təhlili, mənimsənilmiş iqtisadi biliklərin, bacarıq və vərdişlərin yoxlanılması və s.

9. İqtisadi bilik insanda zəhmətə, əməyə qiymət verməyi, qənaətcil olmağı, əmək alətlərindən və istehsal vasitələrindən səmərəli istifadə etməyi, dövlət və xalq malına ehtiyatla yanaşmağı, hər qəpiyin qədrini bilməyi, onu lazımi yerdə xərcləməyi, iqtisadi qanun, kateqoriya və anlayışlardan dövrün tələbləri baxımından baş açmağı düzgün tərbiyə edir.

10. İqtisadi biliklərə yiyələnmiş şagird öz ailə büdcəsindən tutumuş ayrı-ayrı müəssisələrin, hətta yaşadığı dövlətin büdcəsinə məxaric və mədaxil xərclərini, yığımı və s. düzgün təhlil edə bilir.

11. Ümumtəhsil məktəblərində gənc nəslin iqtisadi təhsili mürəkkəb bir proses olub, müəyyən bir sistem təşkil etməlidir. Bu sistemə aşağıdakıların daxil edilməsi zəruridir:

- hər bir ümumtəhsil fənninin iqtisadi təhsil üzrə imkanlarının müəyyən edilməsi və üzə çıxarılması;
- fənlərin tədrisi prosesində və fakultətiv kurslarda iqtisadi biliklərin aşılanması;
- tədris prosesində iqtisadi təhsilə daha çox yer verilməsi;
- tədris prosesində iqtisadi təhsilin daima diqqət mərkəzində saxlanılması;
- təsərrüfat işlərinin yerinə yetirilməsi prosesində iqtisadi biliklərin formalaşdırılması;
- orta məktəblərdə şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olaraq "Gənc iqtisadçı", "Ölkə iqtisadiyyatı", "İstehsalçının və istehlakçının hüquqlarının müdafiəsi", "Vergilər" və s. kimi bölmələr üzrə xüsusi kursların, dərnəklərin təşkil edilməsi;
- tarix, insan və cəmiyyət, coğrafiya və biologiya fənləri üzrə proqram və dərsliklər tərtib edərkən, müasir dövrün tələbləri, proqram və dərsliklərin məzmunu, şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi bilik və bacarıqların məzmununun optimal həcminin müəyyən edilməsi;
- müvafiq fənlərdə proqram və dərsliklərdəki faktiki materiallar üzrə iqtisadi təhsillə bağlı böhranın yaranma səbəbləri və onun aradan qaldırılması yollarına dair biliklərin genişləndirilməsinin nəzərə alınması;
- iqtisadiyyata dair fakultətiv məşğələlərin yerli şəraitə uyğun proqramların işlənib hazırlanması;

– tarix, insan və cəmiyyət, coğrafiya və biologiya fənləri üzrə proqram və dərsliklər hazırlanarkən iqtisadi təhsil üzrə tədqiqatların nəticələrinə istinad etməklə faktiki materialların proqram və dərsliklərə daxil edilməsi.

Aşağıdakı təkliflərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

1. Müəllim kadrları hazırlayan ali və orta ixtisas təhsil məktəblərində tədris proqramlarında iqtisadi təhsil baxımından müvafiq dəyişikliklər aparılması.

2. Müəllimlərin ixtisasını təkmilləşdirən kurslarda iqtisadi təhsilin aktual problemləri üzrə mühazirə və seminarların təşkil olunması.

3. İqtisadi təhsil işində qabaqcıl məktəblərin təcrübələrinin öyrənilib ümumiləşdirilməsi və müəllimlərin özünütəhsil yolu ilə iqtisadi biliklərinin artırılmasına nəzarət edilməsi.

4. Elmi praktik konfranslarda, mətbuat səhifələrində, radio və televiziya verilişlərində şagirdlərin iqtisadi təhsil probleminə geniş yer verilməsi.

5. Ali və orta ixtisas məktəblərində tələbələrin iqtisadi təhsilinin təkmilləşdirilməsi problemlərinə dair referat, kurs və diplom işlərinin verilməsi.

6.Məktəblilərin iqtisadi təhsil üzrə metodik və pedaqoji ədəbiyyatın çap etdirilməsi.

Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır.

**А.Ю.Джафаров**

## Система работы по преподаванию экономических знаний в общеобразовательных школах (IX-X классы)

## РЕЗЮМЕ

Политика рыночной экономики, которая претворяется в жизнь в экономике Азербайджана, делает еще актуальней экономическую собственническую подготовку растущего поколения. Создание рыночной структуры с новым экономическим отношением ставит перед школой новый, а перед обществом нужный вопрос обеспечения первоначальной экономической собственнической подготовки школьников на должном уровне. Его решение и новое рассмотрение на содержание экономического образования, которая дается школьникам в современных общеобразовательных школах приводят к устранению противоречий возникших в связи с радикальными изменениями в политической, экономической и социальной жизни страны.

В I главы излагаются теоретическо-дидактические основы работы по преподаванию экономических образований. Эта глава состоит из трех параграфов: 1) смысл проблемы формирования экономических знаний; 2) освещение проблемы в теоретической, педагогической литературе, программах и учебниках; 3) в связи с программой освещаются научно-теоретические и педагогические основы преподавания экономических знаний ученикам IX-XI классов общеобразовательных школ, излагаются содержание, составляющее и цель освоения экономических знаний и современные требования к ним.

Во II главе «Пути освоения экономических знаний в учебном процессе» исследуются требования для содержания экономических знаний, полезные пути выбора освоения учениками экономических знаний в процессе преподавания география, биология, история, человек и общество и кроме того здесь даны примерные уроки.

В третьей главе научно-педагогической работы (Организация и результаты педагогического эксперимента) Экспериментально проводятся полезные работы формирования экономических знаний на уроках истории, человек и общество, географии, биологии, научно практикуются полученные результаты, подтверждаются правильность гипотез.

A.U.Yafarov

System of Work on TeachingEconomic Konowledges in Middle Schools (IX-X forms)

## SUMMARY

The Policy of market economy which is realized in the economy of Azerbaijan, makes economical ownership of the rising generation still more actual. Establishment of market structure with a new economic relations charges the schools with new tasks, but before the society it introduces an inportant issue of preparing the pupils for the ensurensce of economic ownership gualities at a necessary stage. Its decisions and new considerations in the contents of the economic estabishment, which school pupils are taught in the modern middle schools help to the lingiudation of contradictions arisen in the forms of radical changes in political, economic and social life of the country.

The first chapter highlights theoretical-didactical background of work on teaching economic knowledges. This chapter consists of three paragraps: 1) the sense of problems of formation of economic knowledes: 2) highlighting the problems of theoretical, pedagogical literature in the programmes and text books: 3) alongside the program scientific-theoretical and pedagogical bases of teaching economic knowledges to the pupils of IX-XI forms of middle schools, the contents consisting of the aim of mastering the economic knowledges and modern reguirements to them are presented.

In the second chapter named “The ways of mastering economic knowledges in the teaching process” the reguirements for the contents of economic knowledges, useful ways of choice in learning economic knowledges by the pupils in teaching geography, biology, history, human being and society are investigated, besides, demonstrative lessons are introduced in this chapter.

In the third chapter scientific-pedagogical work (organization and results of pedagogical experiment) has been introduced. Useful work of formation of economic knowledges at the lessons of history, human being and society, geography, biology has been experementally worked out, the received results are scientifically practiced, the truthfulness of the hypoesis is affirmed.

**МИНСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**ИНСТИТУТ ПРОБЛЕМ ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

***На правах рукописи***

**АРИФ ЮНУС оглы ДЖАФАРОВ**

# Система работы по преподаванию экономических знаний в общеобразовательных школах (IX-X классы)

**13.00.02- По спецальности методики преподования курса основы экономических знаний**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени доктора философии по педагогике**

**Б А К У - 2 0 1 4**